# ANTİTERROR ŞƏHİDLƏRİ - VƏTƏNİ BÜTÖV EDƏNLƏR

*Günlərlə, aylarla üzərində işlədiyim, müxtəlif mənbələrdən, KİV məlumatlarından istifadə etdiyim və toplu halında birləşdirdiyim məlumat toplusunun növbəti məqalələrini Sizə təqdim edir, Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!*

## ASLANOV SAHİL ƏHLİMAN OĞLU



Şəhid əsgər Sahil Əhliman oğlu Aslanov 1 noyabr 1996-cı ildə Şabran rayonunun Dağ Bilici kəndində anadan olmuşdur. Orta təhsilini Şabran rayon Dağ Bilici kənd tam orta məktəbində aldıqdan sonra hərbi xidmətə yollanmışdır. Hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki fəaliyyət göstərmiş, sonra isə Müddətdən Artıq Həqiqi Hərbi Xidmət kurslarına yazılmışdır. Kursları müvəffəqiyyətlə bitirdikdən sonra Sahil Aslanov Xüsusi Təyinatlı Qüvvələrin Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu kimi yenidən orduya qayıtmış, xidmətini davam etdirmişdir.

Sahil Aslanov ilk olaraq 1-5 aprel 2016-cı il tarixlərində baş verən Aprel döyüşlərində iştirak etmişdir. Cəbrayıl rayonunun Lələtəpə istiqamətində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Lələtəpə zirvəsinin Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunmasında, düşmənin "Ohanyan səddi"nin darmadağın edilməsində və düşmənə layiqli dərs verilməsində böyük xidmətləri olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Sahil Aslanov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 44 günlük Vətən savaşında gedən ağır və qanlı döyüşlərdə böyük şücaət göstərmişdir, düşmənin ağır məğlubiyyətə uğramasında və şanlı zəfərimizin qazanılmasında böyük xidmətlər göstərmişdir. Vətən müharibəsi bitdikdən sonra Sahil Aslanov cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir. O, Vətən müharibəsində əldə etdiyimiz şanlı zəfərdən sonra da xidmətini davam etdirmişdir.

Sahil Aslanov 2022-ci ilin sentyabrında Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdiyi təxribat nəticəsində baş verən döyüşlərdə də iştirak etmiş, böyük igidlik göstərərək düşməni geri otuzdurmuşdur. Döyüşlər bitdikdən sonra nümunəvi hərbçi kimi xidmətini davam etdirmişdir.

Xüsusi Təyinatlı Qüvvələrin hərbçisi Sahil Aslanov 19 sentyabr 2023-cü ildə Qarabağda silahlanan erməni separatçılarına qarşı rəşadətli Azərbaycan Ordusu tərəfindən başlanan lokal xarakterli antiterror tədbirlərində iştirak etmiş, Xankəndi istiqamətində gedən döyüşlərdə düşmənləri darmadağın edərək böyük rəşadət və hünər göstərmişdir. Əsgər Sahil Aslanov 19 sentyabr 2023-cü ildə Xankəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Qəhrəmanımızın nəşi Şabran Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır. Şəhidimiz subay idi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Sahil Aslanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## AXUNDOV MURAD XİDİR OĞLU



Şəhid əsgər Murad Xidir oğlu Axundov 4 avqust 2004-cü ildə Gəncə şəhərində anadan olmuşdur. 2010-cu ildə Gəncə şəhər 19 nömrəli tam orta məktəbin birinci sinfinə qədəm qoymuşdur. Orta təhsilini başa vurduqdan sonra 2022-ci ildə hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlamışdır. Qəhrəmanımız Komando Briqadasında xidmət edirdi.

Murad Axundov 19 sentyabr 2023-cü ildə Qarabağda silahlanan erməni separatçılarına qarşı rəşadətli Azərbaycan Ordusunun başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Xocavənd istiqamətində gedən döyüşlərdə düşmənləri darmadağın edərək vuruşmuş, böyük şücaət və igidlik göstərərək fərqlənmişdir. Əsgər Murad Axundov 20 sentyabr 2023-cü ildə Xocavənd istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhidimizin nəşi 22 sentyabr 2023-cü ildə Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır. Dəfnində şəhər icra hakimiyyətinin rəhbərliyi, digər rəsmilər, sakinlər və şəhidimizin yaxınları iştirak etmişlər.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Murad Axundov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## BABAŞOV UCAL NƏRBALA OĞLU



Şəhid əsgər Ucal Nərbala oğlu Babaşov 9 aprel 1995-ci ildə İmişli rayonunun Xəlfəli kəndində anadan olmuşdur. Orta təhsilini İmişli rayon şəhid Qabil Mərdəliyev adına Xəlfəli kənd tam orta məktəbində aldıqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İmişli rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki fəaliyyət göstərmişdir. Sonra isə Müddətdən Artıq Həqiqi Hərbi Xidmət kurslarına yazılmışdır. Kursları müvəffəqiyyətlə başa vurduqdan sonra Ucal Babaşov Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu kimi yenidən orduya qayıtmış və hərbi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ucal Babaşov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Qubadlının, Zəngilanın və Laçının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Vətən müharibəsi bitdikdən sonra Ucal Babaşov cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Qubadlının azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir. O, Vətən müharibəsində əldə olunan şanlı zəfərdən sonra hərbi xidmətinə davam etmişdir.

Ucal Babaşov 19 sentyabr 2023-cü ildə Qarabağda təxribatçı və separatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı rəşadətli Azərbaycan Ordusunun başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Xocalı istiqamətində gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. Əsgər Ucal Babaşov 20 sentyabr 2023-cü ildə Xocalı rayonunun Dəhrəz kəndində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhidimizin nəşi doğulduğu İmişli rayonunun Xəlfəli kəndində torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Ucal Babaşov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## BABAYEV SAHİL SARIBALA OĞLU



Şəhid əsgər Sahil Sarıbala oğlu Babayev 21 mart 1992-ci ildə Masallı rayonunun Ərəb kəndində anadan olmuşdur. 2009-cu ildə Masallı rayon Zeynal Zeynalov adına Hacıtəpə kənd tam orta məktəbində orta təhsil almışdır. 2010-cu ilin aprel ayında Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki fəaliyyət göstərsə də 2014-cü ildən Azərbaycan Daxili Qoşunlarının sıralarında Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu olmuşdur. Qəhrəman hərbçimiz Daxili Qoşunların Xüsusi Vasitələrin Tətbiqi Dəstəsində xidmət edirdi.

Sahil Babayev 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror tədbirlərində iştirak etmişdir. Kəlbəcər istiqamətində gedən döyüşlərdə düşmənləri darmadağın edərək vuruşmuş, böyük rəşadət və hünər nümayiş etdirərək fərqlənmişdir. Əsgər Sahil Babayev 20 sentyabr 2023-cü ildə Kəlbəcər istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Qəhrəmanımızın nəşi doğulduğu Masallı rayonunun Ərəb kəndində torpağa tapşırılmışdır. Şəhidimiz ailəli idi, Samir, Elçin və Milay adlı övladları yadigar qaldı.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Sahil Babayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.



**SEVİNDİK NƏSİBOĞLU**
*11-ci sinif şagirdi, şair-publisist, AJB üzvü*
*(İstifadə edilmiş mənbələr: oxu.az, report.az, qafqazinfo.az, unudulmazlar.az)*